

*Ramiz Göyüşov*

# Vahid Əziz - Ümman kimi çağlayan poeziya

**Çağdaş şeirimizin görkəmli nümayəndələrindən biri olan Vahid Əzizin keşməkeşlərlə dolu poeziyası ümman kimi çağlamaqdadır. Onun yaradıcılığı ilə tanış olduqca,bu ümmana baş vurduqca onu oxumaq istəyirsən.Ömrünün müxtəlif vaxtlarında yazılmış bu şeirlər oxucunu haldan-hala salır,xəyallar uzaqlara aparır.**

Vahid Əzizin uşaqlığı İkinci Dünya Müharibəsindən sonrakı dövrə düşmüşdü.

O illər, o qədər də asan illər deyildi və uşaqlığının çətin dövrü Vahid Əziz poeziyasında öz əksini tapmaya bilməzdi.

Əslində Vahid Əziz nəinki uşaqlığını, elə həyatının böyük bir hissəsini çətinlikdə, köçhaköçdə keçirmişdi. Onun özü demiş: "Həyatı keşməkeşli olub. Ordan-ora, burdan-bura köçüb". Bu köçhaköçdə harda yaşayıbsa onun ömrünün bir parçası orda ilişib qalıb. Köhnə yaşadığı yerdən təzə bina olduğu yerə yalnız xatirələrini gətirib. Acılı, şirinli, kövrək xatirələrini. O xatirələr bəzən sarı sim kimi tarıma çəkib Vahid Əzizin qəlbini, bəzən kaman kimi inlədib onun iç dünyasını. Bəlkə elə ona görə də Vahid Əzizin şeirlərində kövrəklik var. Bu kövrəklik bəzən qəhər olub boğur onu. Bax o zaman onu boğan qəhər misralara düzülərək "Qəhərə" çevrilir:

**Körpəlikdən ən ağrılı günləri dərdim,
Acıları hakim oldu şeirlərimə
Ovcumdakı suluqları hey... üfürərdim,
O vaxtlardan qabarları doğmadır mənə.**

**Nə beşikdən doya bildim nə gəncliyimdən,
Özüm qurub odlandırdım od-ocağımı.
Mən atamın qocalığın görmədiyimdən
Əliyalın qarşıladım qocalığımı.**

Diqqət yetirin bu iki bəndə. Əslində bu iki bənddə ifadə olunan fikirlər şairin bütün həyatını, yaşam tərzini əks etdirir. Həm də oxucuda kövrək bir ovqat yaradır. O ağrıları, acıları yaşamış hər kəsi ilk uşaqlıq, gənclik xatirələrinə qaytarır.

Şairliyin, şair həyatının məhrumiyyətlərlə, acılarla, təhlükələrlə dolu bir həyat olduğu heç kəsə sirr deyildir.

Vahid Əzizə də şair taleyi qismət olub. Həmişə hesab etmişəm ki, şeirlər şairlərin yaşantılarıdır. Sevinc və kədəri, hiss və həyəcanı, duyğularının ifadəsi, həyatı, bir sözlə tərcümeyi halıdır. Bu Vahid Əzizdə elə belədir. Onun şeirlərini oxuduqca, həyatı ilə, tərcümeyi-halı ilə, iç dünyası ilə daha yaxından tanış olursan.

**Zamanım olmadı güləm doyunca
Darısqal günləri, ayları saydım
Hərdən düşünürəm: Şair olunca
Kaş ruhu olmayan bir daş olaydım**

və ya

**Ağıllana bilmirəm ki,
Harda gəldi ağlayıram
Bir sərgərdan buludam.
Bir doğma əl tapmıram ki,
Öpə-öpə dəsmal kimi,
Göz yaşını qurudam.**

Vahid Əziz yaradıcılığa uzun müddət, özünün dediyinə görə 20 il fasilə verdikdən sonra poeziyaya böyük bir enerji ilə, hətta deyərdim ki, heyrət edici bir enerji ilə qayıtdı. Onun yaradıcılığının ən mühüm cəhəti ondadır ki, o şair kimi yaşayır, yaradıcılığında son dərəcə səmimidir və gözəgörünməz qüvvə necə diktə edirsə eləcə də yazır.

**"Şair başdan-başa yanan ürəkdir.
Qovrulub dönmüşəm külə, yanmışam,
Görməyə nə var ki, duymaq çətindir.
Necə duymuşamsa, elə yazmışam"**

Əslində bu bircə bənd şeir Vahid Əzizin bütün yaradıcılığının, əgər belə demək mümkündürsə uverturasıdır. Onun yaradıcılığının leymotivini, ana xəttini təşkil edir.

Vahid Əziz müsahibələrinin birində deyir: "Mən nə yazdığımı yazı prosesində bilmirəm. Nə yazacağımı da bilmirəm. Çox maraqlı bir melodiya, onlarla bərabər söz də gəlir."

"Elə olur ki, aylarla şeir yazmıram. Amma yazanda elə bir zərblə yazıram ki, çünki onda mənə melodiya gəlir, oxuya-oxuya o şeirləri yazıram. Elə bir səs gəlir ki mənə eşitsən dəhşətə gələrsən".

"Şeir Tanrının yazdırdığı inşadır, misraları Allah diqtə edir. Mən şeir yazanda içim musiqi ümmanı kimi çağlayır. Sözlər bu musiqili dalğaların üstündəki bəmbəyaz köpüklər kimi aşıb-daşır..."

Görəsən Vahid Əziz göydən gələn melodiyanı yadda saxlaya bilsəydi və həmin melodiya ilə bu melodiya altında yazılan şeirin vəhdətindən necə bir əsər yaranardı?

Onun şeirlərində daxili bir musiqi ahəngi var. Şeirləri musiqiyə, bəstəkarın qulağına yatımlıdır.

Bu səbəbdəndir ki, bəstəkarlar Vahid Əzizin şeirlərini oxuyan kimi, onları bu şeirlər vəcdə gətirir.

Əgər Vahid Əziz adi oxucunu, sadə bir insanı şeirləri ilə ovsunlayırsa, özündən alıb göylərə apara bilirsə, yazıq bəstəkarlar neyləsin?!

Elə ona görə də Vahid Əzizin 200-dən artıq şeirinə mahnı, musiqi bəstələnib və bu şeirlərinə yazılmış mahnılar populyardır, seviləndir. Elə bu səbəbdən də Vahid Əzizin şeirlərinə mahnı bəstələmiş bəstəkarlar zəmanəmizin, çağdaş dövrümüzün ən populyar bəstəkarları, mahnı ifaçıları isə xalqımızın ən məşhur sənət adamlarıdır.

Vahid Əzizin şeirlərinə bəstələnmiş mahnılar və onların ifaçıları şedevrlər yaradır. Bu mahnılar insanların qəlbini fəth edir.

Mən əminəm ki, nə qədər ki, Azərbaycan xalqı var, onun musiqisi, mədəniyyəti, ədəbiyyatı var, Vahid Əzizin də yazdığı nəğmələr yaşayacaqdır.

Vahid Əzizin poeziyasının mövzu əhatəsi çox rəngarəngdir. Bununla yanaşı heç bir tərəddüd etmədən cəsarətlə Vahid Əzizi məhəbbət şairi adlandırmaq olar. Əslində elə həyatın da, yaşamağın da mənası və elə bu səbəbdən poeziyanın da əsas mövzusu məhəbbətdir.

Bununla yanaşı, Vahid Əzizin məhəbbət mövzusunda yaratdığı şeirlərin özü də çox spektrlidir. Əgər biz onun bu şeirlərini ümumi olaraq ağ işığa bənzətsək görərik ki, ağ işıq sınanda min bir rəngə çaldığı kimi, Vahid Əzizin də məhəbbət mövzusunda yazdığı şeirlər min bir rəngə çalır, və heç biri də bir-birinə bənzəmir. Hər birində fərqli nəfəs, fərqli məna var. Lakin bu şeirlərin bir ana xətti var.

**Təpədən dırnağa sevən ürəyəm,
Ayaqdan-başacan atəşəm, qoram.**

deyən şairin bir neçə şeirini bu yazıya daxil etmək istərdim.

**Bir sərgərdan buludam
Ağıllana bilmirəm ki,
Dəli kimi sevdiyimi
Birdəfəlik unudam.**

Və ya

**Xatirəm bir olsa ya iki olsa
Yaşayıb dözməyə nə varıdı ki?
Sənsiz yaşayardım, özümə qalsa
Sənsiz yaşamağa ürək qoyurki?**

**Sığışmır torpağa, ümmana, göyə
Xatirən bir deyil, beş deyil gülüm
Sevgini vücud da unutmur deyə
Ölümnən qorxmuram, qorxuram öləm**

Vahid Əzizin özü sevgi məhəbbət haqqında deyir: "Sevgi ilahinin insana verdiyi



ikinci ruhdur... ikinci ruh da hər kəsdə olmur. İnsan sevə bilirsə deməli xoşbəxtdir".

Vahid Əziz yaradıcılığının mayası səmimiyyətdən tutulub, onun xəmiri səmimiyyətdən yoğrulub. O, məhəbbət şeirlərində də belədir,məhəbbətində də, nifrətində də səmimidir. Diqqət yetirin:

**Aman külək məndən yarı küsdürmə,
Od vuracaq, sevinəcək tüstümə,
Bu məhəbbət bir gün mənim üstümə
El-obanı güldürməsə yaxşıdır.**

Və ya

**Dünya elə bilir "Arsız qonağam"
Hamı düşünür ki, "Sənsiz də sağam"
Uzat, kor olsam da tanıyacağam
Əlini min zərif əllər içində.**

Vahid Əzizin poeziyası bu gün gənclər, sevənlər tərəfindən çox sevilir. Əgər sevənlər bir birinə öz sevgilərini Vahid Əzizin şeirləri ilə bildirirsə, o xoşbəxt sənətkardır.

Vahid Əziz özü deyir. "Əgər cavan bir qız mənim kitabımda oxuduğu və ya efirdə dediyim bir şeiri götürüb telefonla sevdiyi kiməsə göndərirsə demək orada özünü görür".

Akademik Nizami Cəfərov demiş: ".....şair taleyi yüzlərlə, minlərlə insanın taleyində yaşanır. Sənətkar üçün bundan böyük xoşbəxtlik tapmaq çətindir".

**Çaşdım yolumun başıma sən sərdar olandan
Tapmır özünü, bu könül sərgərdan olannan
Hər gün küləyə yalvarıb sənnən soraq aldım
Gəlməzmi xəbər eşqidən xəbərdar olannan**

**Göyün tutulub-açması yalnız sənə bağlı
Günəş də batıb, məskənin uzaqlar olannan
Məcnun hələ də Vahid Əziz, özünə gəlmir
Sevdiyi deyil, qisməti biilqar olannan.**

Və nəhayət Leyli-Məcnun sevdası.Vahid Əzizin qəhrəmanı məhəbbətinin adiləşməyindən qorxur. Diqqət yetirin:

**Sən ölüm anında batanda dilim
Demək istədiyim sonuncu kəlmə
Sındır budaq budaq, kəs dilim-dilim
Amma qurban olum yaxına gəlmə**

**Elə beləcə gəl mələk donunda,
Yetər çiçək kimi baxıb gülməyin,
Görünür ən böyük Adil olanda,
Qorxur sonrasından adiləşməyin.**

Onun poeziyası üçün aforistik deyimlər artıq şairin, istedadı ilə yanaşı həm də onun müdrikliyindən, kamilliyindən, həyat təcrübəsindən, müşahidələrindən xəbər verir.

**Bax ha, məhəbbət də insan kimidir
Qovula-qovula namərd də olar.**
***
**Daha məhəbbətə ümidi yoxsa
Sevən də dünyadan köçsə yaxşıdır.**
***
**Ayrılsaq heç zaman bar verməyəcək
Sevgimiz doğranmış çiçəklər kimi.**
***
**Çəkmə onu-nə dərddi ki,
Çəkilməli dərd ola?
Çəksən elə dərdi çək ki,
Qalan dərdlər rədd ola.**
***
**Kömürdən bilinər nəyin yandığı
Kimlərin yandığı küldən bilinməz.**

**Nakişi olanlar ağladıb məni
Sonra danlayıb ki, "Kişi ağlamır"**

Vahid Əziz bütün lirikası ilə, qoşmaları, qəzəlləri, sərbəst şeirləri ilə nə qədər sevgidən, məhəbbətdən yazırsa yazsın, həm də üsyankar şairdir. Bu üsyankarlıq onun Vətən sevgisindən, xalq sevgisindən, dövlət sevgisindən gəlir, vətəndaşlığından gəlir.

Böyük xalqın, böyük şairinin içindəki daxili narahatçılığından gəlir, sabahkı nigarançılığından gəlir.

Vahid Əziz onu əhatə edən aləmdə müşahidə etdiyi nadanlıqlara, eybəcərliklərə üsyan edir.

**Daha duyuram ki, batacaq səsim,
qatilim - bu Yurda sevgim olacaq
nə vaxt ki, tərgitsək yalan deməyi:
nə vaxt əl götürsək saxta tərifdən**

**hələlik günaha hamımız şərik,
birləşsək düşməni yenə bilərik,
o vaxt qələbəni çala bilərik
yoxsa Qarabağsız qala bilərik**

Və belə olanda Vahid Əzizi yer üzü bezdirir, o göylərə tələsir.

**Mənim üçün nə ölüm var, nə olum,
Qopan teləm bir rübabdan ilahi
Apar məni dərgahında qul olum
Qurtar məni bu əzabdan ilahi**

Və ya

**Heç bilməzdim daşım belə ağırdır
Bəxtim belə biçararədi, fağırdı
Gedəcəyəm göylər məni çağırdı,
Daha yerdə qalmaq olmur əzizim.**

Adama elə gəlir ki, Vahid Əziz yer adamı deyil, nə vaxtsa göylərdə məskən salıb və indi yenidən göylərə çəkilmək istəyir.

**Vahid Əziz anlat bu nə əməldir,
Biri beşik, biri tabut düzəldir,
Gəzib gəldim,-Dərgah burdan gözəldir,
Yer üzündə vaxtımızı itirdik.**

**(ardı 16-cı səhifədə)**

# Vahid Əziz - Ümman kimi çağlayan poeziya

(əvvəli 13-cü səhifədə)

Azərbaycan poeziyasının son əlli ili Vahid Əziz yaradıcılığı ilə müşayət olunur.Yarım əsrdir ki, Vahid Əziz poeziyamızda ümman kimi çağlamaqdadır. O, əlli ildir ki, xüsusilə çox keşməkeşli, insan həyatının bütün sahələrini əhatə etdiyi ziddiyətlərlə dolu bir dönəmdə, yeni yaranmış bir dövlətdə cəmiyyətin hələ formalaşmadığı bir zamanda yeni yaranan nəsillərin ədəbi zövqünün formalaşmasında, insanlara düzlük, xeyirxahlıq, halallıq, səmimilik, cəsarət, qeyrət, ədalət və məhəbbət hisslərinin aşılanmasında çox mühüm rol oynayır. Elə bu səbəbdəndir ki, onun mövzusundan asılı olmayaraq bütün şeirləri oxunaqlı, ürəyə yatımlı, yaddaqalandır, təsir edici enerjiyə malikdir.

Gəlin onun "Vətəndaş sərçələr" şeirinə diqqət yetirək.

**Binəsi kollarda, Vətən daşında,**
**nə mülkü, nə gölü, nə adası var,**
**amma ki, köçəri qaranquşun da,**
**yerliyə şəriklik iddiası var!**

**Bizlərlə birlikdə gülüb-ağlayan**
**bu Yurdun balaca sərçələridi,**
**bəlkə də sərçəni cılız saxlayan,**
**millət təəssübü, Vətən dərdidi?**

Vahid Əzizin şeirlərinin belə güclü olması onu, daxilən sərbəst, geniş dünya görüşə və dərin həyat müşahidələrinə, yüksək intellektinə söykənir.

Cəsarət Vahid Əziz poeziyasını səciyyələndirən xüsusiyyətlərdən biridir. O,həyat gerçəklərini, insan münasibətlərini, ətrafında baş verən prosesləri poeziyaya ütüləyib gətirmir. Bu həqiqətlər, gerçəkliklər necədirsə, Vahid Əziz poeziyasında da öz əksini o cür tapır.

**Doğranıb gedirik çırpılar kimi,**
**dağ kimi əriyib təpə qalırıq,**
**altundan olsaq da qara pul kimi,**
**tamah bazarında xırdalanarıq,**
**İndi bir gözü var tərəzilərin,**
**o birin kor etdik-pozuldu, pərsəng**
**"Əmlak bazarının"-zəmanəmizin**
**dəllalı ya quldur, ya da pəzəvəng.**

Bir qənaətimi də bölüşmək istədim. Şairin 500-ə qədər toplanmış "Alça çiçəyinə bənzəyən ömür" kitabını oxuduqca "Çiçək" ifadəsi məni özünə cəlb etdi. Az qala Şairin iki şeirindən birində "Çiçək" sözü işlədilir, özüdə o qədər yerində işlədilir ki, heyran qalmaya bilmirsən. Çiçək kəliməsi Şair üçün həm mübtədadır, həm xəbərdir, həm təyindir. Bir sözlə istər nitq hissəsi istəsə də cümlə üzvü kimi şeirdə yer tutur "Çiçək" Vahid Əziz üçün həm təşbehdir, həm məcazdır, həm də istiarə.

**Çiçəklər həmdəmdi sevən ürəyə,**
**ürək gül açdısa, bir daha solmaz,**
**insan gözəlliksiz qalmasın deyə,**
**ilin heç bir fəsli çiçəksiz olmaz.**

***

**A biçinçi, yol eləmə bu düzdən,**
**gör nələr var çiçəklərin nazında?**
**Bənövşələr doymaz Vahid Əzizdən**
**şehə batıb, yuxusunu yozanda.**

***

**Təzə-təzə bağlanırdı,**
**bir bənzərsiz Çiçək mənə,**
**taleyimə kim qarğadı,**
**biçin gəldi bu çəmənə.**

Bu yazını tamamlayana yaxın istədim ki, bir oxucu kimi Azərbaycan Yazıçılar İttifaqına, Vahid Əzizə, "Xalq şairi" fəxri adının verilməsi ilə bağlı bir müraciət ünvanlayım.

Lakin onun oxuculara təqdim etdiyi aşağıdakı şeirini oxuduqdan sonra bu fikrimdən daşındım. Şeirin adı "Vətəndaş"dır...

**Bir gün, amma, dəqiq günü bilmirəm,**
**biryolluq gedəcəm mən bu şəhərdən,**
**nəfəs dərə-dərə şeirlərimnən,**
**məni duyacaqlar xatirələrdən.**

**Bir gün, bilirəm ki, o gün olacaq,**
**buz kimi məzarım qazılacaqdı,**
**amma ki, hamıdan fərqli olaraq,**
**onun baş ucunda Tanrıya məxsus**
**iki gözəl kəlmə,**
**iki gözəl ad: adı Vahid Əziz yazılacaqdı !**

**Bir gün, bu Vətənnən gedəcəm incik,**
**çünki, neçə başa ağır daş idim!**
**Tarix özü bilər, böyük, ya kiçik,-**
**amma, yazacaq ki - VƏTƏNDAŞ idim!**

Belə olan halda bir daha fikrimdən vaz keçdim və düşündüm ki, ən yaxşısı elə Vahid Əziz kimi VƏTƏNDAŞ-şair olmaq kifayət edər.

Əzizim Vahid Əziz!

Sizə yüz il ömür arzulamıram. Arzu edirəm ki, özünüz-özünüzə gərək olmayanda, qapı pəncərəni özünüz açıb-bağlaya bilməyəndə, əliniz əsalıq olanda dayansın ürək...Ancaq hələ ona çox var. Hələ Sizin bu dünyayla işiniz var.

**Vahid Əziz çəkməz gözün aynadan**
**xəyallarda göz-qaşın oynadan,**
**ömrün çoxu köç etsədə dünyadan,**
**gül-çiçəyə boylanırsan nədənsə...**

Və sonda.Vahid Əzizin poeziyzsının təsiri altında yazdığım bu kiçik yazı heç olmasa şairin bir şeirinin oxucuya verdiyi hiss qədər sevinc hissi verə bildisə və mən onda məqsədimə çatmışam.

***P.S.Yazı çapa gedəndə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərənamı ilə Vahid Əzizə artıq Xalq şairi adı verilmişdi.***